# AZƏRBAYCAN RESPUBLIKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# SƏRƏNCAMI

**Bakı şəhəri** **№ 1/9** **07 fevral 2019-cu il**

**Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditor yoxlamalarının keyfiyyətinin yaxşılaşdırılması haqqında**

Korrupsiyaya qarşı mübarizə, kölgə iqtisadiyyatının azaldılması və şəffaflığın artırılması sahəsində Auditorlar Palatasının üzvlərinin öz fəaliyyətlərini günün tələbləri səviyyəsində qurmaq, səlahiyyətli dövlət orqanlarının qərarlarının icrası ilə əlaqədar olaraq aparılan yoxlamaların keyfiyyətinin yüksəldilməsi və yoxlamaların nəticələrinin düzgün rəsmiləşdirilməsi və aidiyyatı üzrə müəyyən edilmiş müddətlərdə təhvil verilməsinin təmin edilməsi məqsədilə

**QƏRARA ALIRAM:**

1. Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalara cəlb ediləcək auditorların siyahısı aşağıdakı tərkibdə təsdiq edilsin:

1. Abbasov Çingiz Abbas oğlu- Sərbəst auditor;
2. Abdurahmanov Orxan Əlisəfa oğlu “Grow Audit and Consulting” MMC-nin direktor-auditoru;
3. Ağayev Akif Ağa oğlu- “Şəfəq Audit Konsaltinq” MMC-nin auditoru;
4. Aqeyeva Yelena Yevgenyevna- “G & A” MMC-nin auditoru;
5. Bayramov Vəli Oruc oğlu- Sərbəst auditor;
6. Bəşirov Şərif Miri oğlu- Sərbəst auditor;
7. Cəbiyev Hüseyn Kommuna oğlu- “Zaman-Audit” MMC-nin direktor-auditoru;
8. Əhmədov Misir Zaman oğlu- “Azərbeynəlxalq audit xidməti” MMC-nin direktor-auditoru;
9. Hacıəzizov İlham İsfəndiyar oğlu- Sərbəst auditor;
10. Həsənov Bəhlul Qara oğlu- “NEXT AUDİT-KONSALQTİNQ” MMC-nin direktor-auditoru;
11. Hüseynov Fərhəddin Əbülqasım oğlu- “LŞ Audit” MMC-nin direktor-auditoru;
12. Qurbanov Abbasəli Şükür oğlu - “Analitik - Audit Konsaltinq” MMC-nin direktor-auditoru;
13. Qurbanov Elçin İbad oğlu- “VXA-Audit” MMC-nin direktor-auditoru;
14. Quliyev Asif Hidayət oğlu- “PREMIUM-AUDIT” MMC-nin direktoru;
15. Musayev Adıgözəl Maqsud oğlu- Sərbəst auditor;
16. Orucov Nurlan Ziyəddin oğlu- “ONZ Accounting” MMC-nin direktor-auditoru;
17. Pənahov Novruz İsmayıl oğlu- Sərbəst auditor;
18. Sadıxov Azad Adil oğlu- “CACS AUDİT” MMC-nin auditoru;
19. Soltanov Qulu Mehbalı oğlu- Sərbəst auditor;
20. Süleymanova Elzadə Süleyman qızı- “Azel-Audit” MMC-nin direktor-auditoru;

21. Şirinov Yasin Rza oğlu- Sərbəst auditor;
22. Vahabov Adil İdris oğlu- “Kermur Audit və Konsaltinq” MMC-nin direktor-auditoru;
23. Vəlizadə Səftər Vəli oğlu- Sərbəst auditor.

2. Bu sərəncamın 1-ci bəndində göstərilmiş auditorlara tapşırılsın ki, onlara tapşırılan yoxlamaların 2017-ci il 8 may tarixli 1/23 nömrəli sərəncamın 1-ci bəndində hazırlanması nəzərdə tutulmuş “Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalara dair tələblər haqqında” Qaydaya uyğun olaraq vaxtında və keyfiyyətlə aparılmasını təmin etsinlər.

3. Bu sərəncamla təsdiq edilmiş siyahıda nəzərdə tutulmuş auditorların hər birinin təqvim ili ərzində səlahiyyətli dövlət orqanlarının sifarişi ilə zərurət olduqda ən azı 3 yoxlama aparması məqsədəmüvafiq hesab edilsin.

4. Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalarda iştirak edən auditorların işləri ilin yekununa dair reytinq səviyyələrinin müəyyənləşdirilməsi zamanı nəzərə alınsın və bu barədə müvafiq qaydalara zəruri əlavə və dəyişikliklər edilsin.

5. Şəffaflığın təminatı və korrupsiyaya qarşı mübarizə idarəsinə (M.Abbasov, B.Məmmədli, E.Rzayev) tapşırılsın ki:

- səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalara cəlb ediləcək auditorların onlara həvalə edilən tapşırıqlar üzrə müvafiq təcrübə və bilikləri nəzərə alınmaqla düzgün seçiminin aparılmasını təmin etsin;
- hər rübün sonunda səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamaların vəziyyətinə dair arayış hazırlayıb təqdim etsin;
- yoxlamaların auditorlar tərəfindən aparılmasının təşkili, tənzimlənməsi və hesabatlığın aparılması üzrə müvafiq tədbirləri həyata keçirsin;
- yoxlamaların təşkili zamanı bu sərəncamla təsdiq edilmiş siyahıda olan hər bir auditorun xidmətindən istifadə olunmasını təmin etsin;
- səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamaların rəsmiləşdirilməsi və müvafiq qurumlara göndərilməsini məsul auditorlarla birlikdə həyata keçirsin;
- bu sərəncamın mətninin siyahıda adları qeyd edilən Palatanın üzvlərinə və Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı mübarizə Baş idarəsinə, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə və Azərbaycan Respublikasının Ali Məhkəməsinə göndərilməsini təmin etsin.

6. Bu sərəncamla təsdiq edilmiş siyahıda adları olmayan auditorlar tərəfindən səlahiyyətli dövlət orqanlarının sifarişlərinin qəbulu və icrası yolverilməz hesab edilsin.

7. Bu sərəncamın mətninin Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

8. Palata sədrinin 15 may 2017-ci il 1/25 nömrəli sərəncamı qüvvədən düşmüş hesab edilsin.

9. Bu sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Palatanın sədri** **Vahid Novruzov**